MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 008:316.34/.35**
**ORCID: 0009-0007-5911-8555**
**https://doi.org/10.52094/2221-7584.2025.47.079**

**Leyla Zeynalova Mikayıl qızı**
**AMK nəzdində Musiqi Kollecinin müəllimi**
**ADMİU-nin doktorantı**
**leylamaharramovant@mail.ru**

# MƏİŞƏT MƏRASİMLƏRİ VƏ ONUN KULTUROLOJİ SİSTEMİ

**Xülasə**. Xalqların maddi və mənəvi materiyasının bütün spektrləri müxtəlif səviyyələrdə arxaik təsəvvürdən üzü bəri olanlar kontekstində təhlillərin probleminə çevrilmişdir. Mif və mifə qədərki dünyagörüşün ümumi konsepsiyası etnoqrafik və mifoloji dərkin paradiqmatik xarakteri ilə açımını zərurətə çevirməklə, həm də stixial xaraktristikasının potensiya səviyyəsində dərkini fövqəlzaman müstəvisində əsasa çevirir. Azərbaycan xalqının zəngin mədəniyyət fakturası ibtidai düşüncədə oturuşmuş modellərlə və qəlibləşmə prosesində kutsallıq baxımından topluma təqdim olunmanın ümumi sistemi ilə diqqət önünə gəlir. Məişət mərasimləri bu möhtəşəmliyin nümunəsi olaraq müxtəlif aspektlərdə folklorşünaslar, etnoqraflar, musiqişünaslar və s. tərəfindən təhlilə gətirib mahiyyətinin açılmasına həssaslıq göstərmişlər. Kulturoloji baxımdan aparılan sistemli təhlillər özünün periferik xarakteri və etnoenerjinin təqdim olma mexanizmlərinin özünəməxsusluq modellərinə həssaslıq göstərmə məramı ilə daha çox ciddi təsəvvür formalaşdırır.

Məişət mərasimləri bütün səviyyələrdə etnosun özünü ifadə və təqdim mədəniyyətidir. Onun geneoloji sisteminin mahiyyətində daşınanların aydınlaşması həm də tipolojiyasının müəyyənləşməsi üçün əsas olmuşdur. Etnoqrafik layın ehtiva etdiyi çeşidlilik etnosun münasibətlər sistemini, dünyagörüşünü, müxtəlif aspektlərdə özünü göstərən epizodik faktların simvolikasını açıqlamaqla eyni zamanda kulturoloji mükəmməlliyin ezoterik xarakterini müəyyənləşdirməyə şərait yaradır.

**Açar sözlər**. Məişət mərasimləri, kulturologiya, etnoqrafiya, adət-ənənə, sivilizasiya, arxaik yaddaş, simvolika və s.

Bəşər sivilizasiyasının formalaşdırdığı təsəvvür xalqlar timsalında özünəməxsusluq və əlavə laylar kontekstində dinamiklik mənzərənin faktlaşdırdığı komponentlərlə səciyyələnir. Mərasim mədəniyyəti mövsüm və məişət aspektində özünü nümayiş etdirən çoxqatlı zənginliyə və gəlinən yolun ümumi axarı timsalında özünü göstərən əlavə çalarların tonallığı ilə diqqət önünə gəlir. Bunların mahiyyətində dayanan fakturanın məzmun və işarələnmənin xarakteri baxımından təhlili ritual və ritual simvolikasında olanları öz içinə almaq simpatiyası ilə dominantlıq sərgiləyir.

**Xalqın milli mədəniyyət arsenalı**. Azərbaycan xalqının mədəniyyət arsenalını izlədikdə zəngin folkloru, etnoqrafik mükəmməlliyi, ailə institutunun sərgilədiyi təsəvvür, sosial münasibətlər baxımından müəyyənləşmiş qəliblər, elat həyat tərzi, etik, estetik davranış prinsipləri, dövlət məfkurəsinə dayanan nizam, multikultural düşüncə və s. bütün tərəflərilə etnokulturoloji sistemin unikallığına dayanır. Mişət mərasimləri bu kontelstdə ayrıca bir hissədir və müxtəlif aspektlərdə on doqquzuncu yüzilliyin ortalarından üzü bəri maraqlı araşdırmaların probleminə çevrilmişdir. M.Ş.Vazehin, T.Bayraməlibəyovun, E.Sultanovun, F.Köçərlinin, Ü.Hacıbəyovun, Ə.Abidin, Y.V.Çəmənzəminlinin, H.Zeynallının, M.H.Təhmasibin, V.Vəliyevin, T.Bünyadovun, P.Əfəndiyevin və başqalarının fikir və mülahizələri, təhlil yazıları bunun örnəyidir. Ümumiyyətlə, "məişət mərasimləri xalqın adət və ənənələri, məişəti, etiqadları və s. ilə bağlı olaraq təşkil edilmişdir. Azərbaycan xalqı içərisində yas, dəfn, doğum, toy mərasimləri də olmuş, həmin mərasimlərdə də müxtəlif mahnılar oxunmuşdur" **[5, s. 95]**. Mərasim folklorunun informasiya qatı rəngarəngliklər baxımından tarixi-mədəni axarın spesifikasını müəyyənləşdirir. Onların ümumi mənzərəsi mahiyyət anlamında lokal (regional), milli (Azərbaycan) və ümumtürk xalqlarının tarixi gələnəyinə dayanmaqla müqayisələrə şərait yaradır.

Mərasimlər bütün komponentlərilə etnopotensiyanın ümumi xarakterini, onun zənginlik çalarlarında müşahidə olunan spesifikanı, estetik təsəvvürün formalaşmasından yaşam normativlərinin idealları müstəvisində olanlara qədər bir mükəmməlliyi sıralayır. Məsələn, vəsfi-hallar öz xarakterik xüsusiyyəti ilə Növruz qabağı mərasimlər sırasında əsaslı bir təsəvvürü diqqət önünə gətirməklə

insanların həyata baxışını, gələcək taleyində olanların işarəsi olaraq keçirilən mərasimlər silsiləsinə dayanır.

| | |
|---|---|
| Yeri-yeri at gətir, | Köynəyi yaşıl oğlan, |
| Yüyən apar, tut gətir. | Gey gəl, yaraşır, oğlan. |
| O yerin sovqatından | Anam sənə qız verməz |
| Bir qutuya tut gətir. | Götür məni qaç, oğlan. **[4, s. 47]**. |

Y.V.Çəmənzəminli bu ritualın simvolikasını və məzmununda olanların spesifikasını təhlil edərək vurğulayır ki, "xalqımız arasında Novruz bayramına bir ay qalmışdan başlayaraq çərşənbə axşamı vəsfi-hal kimi bir adət vardı. Qadın və qızlar toplanaraq bir badya su qoyar və hərədən bir nişan alıb suya salardılar. Badya başında oturan qadın təsadüfən əlinə keçən nişanı sudan çıxarb bir vəsfi-hal söylər, bu qayda ilə fala baxardılar. Deməli, nişan verənin ürəyində bir niyyət olar və niyyətinin baş verəcəyini və ya verməyəcəyini söylənən vəsfi-haldan duyardı" **[5, s. 74]**. Ümumiyyətlə, kulturologiya bütün kontekstlərdə xalqın maddi və mənəvi həyatının çeşidli tərəflərini bir təsəvvür hadisəsi olaraq əks etdirmək məramı ilə spesifikləşir. Azərbaycanın müxtəlif bölgələrində (daha çox dağlıq və dağ ətəyi kəndlərdə) özünü göstərən bu mərasim törəni insanların dünyagörüşü, həyata baxışı, inamları, alqış və duaları kontekstində əsaslı bir təsəvvürlə xarakterizə olunur. Mərasim aktı olaraq sərgilənən məzmun simvollaşma, ritual xarakterli, elementlərin işarəvi kodu, halın bəyanı baxımından əvvəlcədən olan xəbərləşmə baxımından bir neçə istiqaməti özündə ehtiva edir.

a) taleyin qabaqcadan müəyyənləşməsinə görə ritual səviyyəsində formalaşan təsəvvür;

b) etnosun yaşamının özünüifadə baxımından arxetip kontekstində psixi-instiktiv potensiya olaraq xəbərləşmə xarakteri;

c) sunun ritual simvolikası sırasında araçı funksiyasında yerinə yetirdiyi təmizlik anlamında məlumat ötürmə rolu;

ç) mərasim icraçısının atılan əşya ilə intuitiv bağlılığı və onun söylənən sözlə taleyi müəyyənləşdirməsi və s.

Etnokosmik düşüncənin xaos və kosmos kontekstində əhatələdiyi təsəvvür ibtidai zamanın dərk və anlam səviyyəsində bütün inanışlarını öz içinə almaqla

onun sonrakı dönəmlərdə mərasim baxımından qəlibləşmələri üçün əsas olmuşdur. Türk epos yaradıcılığında bunun bir-birindən maraqlı mənzərəsi özünə göstərir və sonrakı dövrdə müəyyən əlavələrlə diqqət önünə gəlməklə spesifikləşir. "Manas", "Kitabi-Dədə Qorqud", "Koroğlu" və s. müxtəlif coğrafi areallarda, həm də zamnanlarda yaranma xüsusiyyəti ilə məişət aspektində etnosun kulturoloji mərasimlərinin spesifikasını və onda təhtəlşüur müstəvisində mahiyyətini aydınlaşdırır. Məsələn, "Kitabi-Dədə Qorqud" dastanındakı "Dirsə xan oğlu Buğacın boyu" xalq təsəvvüründəki dilək tutmanı, Oğuz eli səviyyəsində Bayındır xanın şülən keçirməsini, adqoyma mərasiminin arxaik modelini ifadə etmək baxımından mükəmməl bir təsəvvürlə diqqət önünə gəlir. "Bir gün Qamğan oğlu xan Bayındır yerindən durmuşdu. Şamı günlüyü yer üzünə tikdirmişdi. Ala seyvanı göy üzünə aşanmışdı. Min yerdə ipək xalça döşənmişdi.

Xan Bayındır ildə bir kərə toy edib Oğuz bəylərini qonaqlardı. Yenə toy edib atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı" **[7, s. 19]**. Dastandan verdiyimiz bu epizod Oğuz kulturoloji sisteminin xanlar xanı Bayındır xan səviyyəsində keçirilməsinin arxaik qatında olanların böyük, axsaqqal funksiyasında fəaliyyətini və cəmiyyət baxımından elat həyat tərzinin mədəniyyət təsəvvürlərini əhatələyir.

Ailə nizamı kontekstində mühüm rol oynayan məqamlardan biri də boy səviyyəsində adqoyma ritualının keçirilməsi məsələsidir. "Oğuz bəyləri gəlib oğlanın üstündə yığnaq oldular.

Dədəm Qorqud gəlsin bu oğlana ad qoysun. Beləsincə alıb babasına varsın. Babasından oğlana bəylik istəsin, taxt alıb versin,- dedilər.

Oğlanı alıb babasına vardı. Dədəm Qorqud oğlanın babasına söyləmiş, görəlim nə söyləmiş. Aydır:

Hey Dirsə xan!
Oğluna bəylik vergil,
Taxt vergil ərdəmlidir.
Boyu uzun bədöy at vergil,
Minər olsun hünərlidir!

Bayındır xanın ağ meydanında bu oğlan cəng etmişdir. Bir buğa öldürmüş. Sənin oğlunun adı Buğac olsun" **[7, s. 22-23]**. Sonrakı dövrün dastan örnəklərində bu motiv ardıcıllıqla özünü göstərir. "Qurbani", "Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Arzu və Qəmbər" və s. bu baxımdan maraqlı faktura ilə səciyyələnir. Məsələn, "Novruz və Qəndab"da adqoyma mərasiminin ritual xarakteri ənənənin spesifikasını şərtləndirir. "Deyirlər ki, aradan bir müddət keçəndən sonra Ay parçası kimi gözəl-göyçək bir oğlan uşağı dünyaya gəldi.

Kərim paşa əmr elədi:

– Şəhərdə nə qədər həkim, loğman, qarı, başbilən varsa, hamısı yığılsın bağıma, uşağa ad qoymaq lazımdı.

Bəli, hamı yığıldı bağa. Qarıların içində bir qarı var idi, irəli durub dedi:

– Paşam sağ olsun, icazə versəz, mən bu uşağın adını Ölkənqulu qoyaram. Böyüyəndə qoy həm uzununa, həm də eninə versin.

Qarıların içində bir ipək qarı da var idi. Dedi:

– Paşam sağ olsun, qarşıdan Novruz bayramı gəlir, mən istəyirəm, bu uşağın adını Novruz qoyam.

Kərim paşanın bu addan çox xoşu gəldi. Qarını dünya varından razı yola saldı"**[3, s. 8]**. Ümumiyyətlə, epos yaradıcılığı etnokulturoloji sistemin bütün spektrlərini öz içinə almaq xüsusiyyətilə diqqətçəkici təsəvvür formalaşdırır. Məhz bu səbəbdən etnoqraflar, forlklorşünaslar, kulturoloqlar, musiqişünaslar müxtəli aspektlərdə dastan mətni üzərində müşahidələr aparmaqla gəlinən yolun diaxroniyasını bir qaynaq olaraq aydınlaşdırmağa xüsusi diqqət yetirirlər. "Baybura oğlu bamsı Beyrək boyu" köbəkkəsmə kontekstində arxaik qatdan günümüzə qədər özünü göstərən təsəvvürləri bir yaddaş örnəyi kimi gələcəyə daşımaq missiyası ilə spesifikləşir. "Şifahi poeziyamızda xalqın gündəlik məişəti ilə bağlı nəğmələr xüsusi yer tutur. Bu nəğmələr insanın həyatında baş verən ən mühüm hadisələrlə əlaqələndirilmiş, xalqın sevincini, fərəhini, arzusunu və kədərini ifadə etmişdir" **[9, s. 252]**. Doğumla əlaqədar rituallar, adqoyma mərasimi, toy mərasimi və onun çeşidli epizodları, ağılar və s. xalqın tarixinin, mədəniyyətinin, ən qədim dövrlərindən günümüzə qədər gəlinən yolun məzmununu açıqlayır.

**Xalqın zəngin mərasim mədəniyyəti**. Xalqın zəngin mərasim mədəniyyətində doğumla, diləktutma ilə bağlı çoxlu söyləmələr özünə yer alır. Nağıllar, əfsanələr, mif örnəkləri bunun tipik nümunəsi olaraq öz məzmununda olanları gələcəyə ötürmək funksiyası ilə diqqət önünə gəlir. Məsələn, "Manas"dakı övladsızlıq problemi və bu baxımdan görülən tədbirlər, diləmələr ritual özünəməxsusluqlarını etnopotensiya olaraq təlqinə yüklənir. "Çakıb xanəmları, auldakı ağsaqqalları və doğmaları ilə danışaraq gecə gördüyü yuxuya görə böyük bir ziyafət verməyə hazırlaşdı. Çakıb ziyarətə Altaydakı on iki qəbilə ilə birlikdə qırğızı, qazağı, noyqutu, noqoyu, türk soydaşlarını, bunlardan başqa inciməsinlər deyə kalmık və turqut monqolları da dəvət etdi. Sərvət düşkünü Çakıb bu dəfə xəsislik etmədi. Sevincindən topladığını, yığdığını xərcləməyə başladı. İki qızıl xəzinəsinin ağzını açdı. Saysız ilxısından doqquz qara qısraq, sürüsündən doxsan qara qoyun, bir neçə baş dişi dəvə və inək kəsdi. Çakıbın ziyarətinə çağrılanlar xəbərləşib bir yerdə gəldilər. Yetmiş qırğız ailəsi iki gün qonaq qaldı. Çakıb bəy yağmalanmış qırğıza unutduğu xeyir-duanı xatırlatmaq üçün at kəsdi. Ac xalqı doyurdu, geyindirib-keçindirdi. Əlinə pul verdi, uzaqdan gələnlərə, ən dəyərli qonaqlara at bağışlandı" **[8, s. 16]**. Etnokulturoloji zənginliyin rəngarəg və həm də spesifikliklə diqqət önünə gələn örnəkləri məişət mərasimləri baxımından ayrıca bir laydır. Türk xalqları min illərə bağlanan bu rəngarəng mədəniyyət təsəvvürlərini törə, kutsal dəyər, dünyagörüş, əxlaq, davranış və s. baxımından gələcəyə daşımaqla həm də gediləcək yolun dinamiklik konseptini müəyyənləşdirmişlər.

Qazax, qırğız, türkmən, özbək, qaraqalpaq, kabardin, qaraçay, uyğur, başqırd və s. xalqların mifik təsəvvürünə dayanan əhatəlilik müxtəlif aspektlərdə, həm də müqayisəli yanaşmalarda əsaslı faktura ilə səciyyələnir. Maddi və mənəvi atlasın ümimi sistemini və məzmununda olanların təbiiliklə ötürülməsi prosesini əhatələyir. "Sizə xəbər verim Diyarbəkir şəhərindəki Kərim paşadan. Kərim paşanın var-dövləti həddindən ziyadə çoxuydu, amma övlad sarıdan dərd-qəm sinəsini didib-dağıdırdı. Günlərin bir günü Kərim paşa evə bikef qayıtdı. Zeynəb xanım Kərim paşanın ömür-gün yoldaşı idi. Gördü ki, Kərim paşanın halı hal deyil, payız buludu kimi dolub, yaman bikefdi. Dedi:

– Nə yaman bikefsən? Şükür, Allah-təala bizə hər şeyi nəsib eləyib, nədən belə narahatsan?

Kərim paşa dedi:

– Zeynəb xanım, Allah-təala bizə hər şey verib, ancaq övlad nişanəmiz yoxdu. Bu gün-sabah başımı yerə qoyanda yurdumda kim ocaq çatacaq?

Zeynəb xanım dedi:

– Kişi, bundan ötəri niyə narahat olursan, şəhərdə nə qədər kasıb adam varsa, yığ başına, onlara gözəl məclis qur. Yesinlər-içsinlər, əllərini Allah-təalaya qaldıraraq dua eləyib, şükür oxusunlar. İnşallah, bizim də övladımız olar" **[3, s. 7]**. Məişət mərasimlərinin ümumi xarakteristikası və əhatələdiyi təsəvvür etnosun kulturoloji sisteminin mükəmməlliyinə, yaşam tərzinə bağlanan məsələ olub gəlinən yolun tarixi-mədəni xarakteristikasını açıqlayır. Məlum olduğu kimi, "mövsüm mərasimləri bütöv bir qəbilənin, xalqın eyni vaxtda, kütləvi şəkildə keçirdiyi şənlikdirsə, məişət mərasimi həmin qəbilənin, xalqın ayrı-ayrı vaxtlarda, başqa-başqa tərzdə keçirdiyi şənlik və ya yasdan ibarətdir. Başqa sözlə, mövsüm mərasimləri hamı tərəfindən müəyyənləşmiş vaxtda keçirilir, məişət mərasimləri isə hamı tərəfindən keçirilsə də, onun vaxtı qabaqcadan məlum olmur. Hər kəs onu bir növ ayrılıqda, ailəsinə üz vermiş xoşbəxt, yaxud bədbəxt hadisə zamanı qeyd edir" **[10, s. 104].** Ümumiyyətlə, məişət mərasimləri xalqın həyatında baş verən hadisələr baxımından qəlibləşmiş adət-ənənələr olmaqla əski təsəvvürdən günümüzə gələn yolun əsrarəngizliklərini, xarakterini diqqət önünə gətirən etnokulturoloji təfəkkür intelleksiyasının örnəyidir.

**Nəticə**. Xalqların maddi və mənəvi materiyasını özündə ehtiva edən etnokulturoloji təsəvvürlər ibtidai zamanın animist, totemist, fetişist bilgilərini də öz içinə almaqla etnokimliyin göstəricisi olaraq diqqət önünə gəlir. Geniş auditoriyanın zəngin mədəniyyət arsenalında mühüm bir hissəni tutan məişət mərasimləri toplumun mədəniyyət, mənəviyyat təsəvvürü olmaqla təkcə müasir səviyyədə özünü göstərən intelleksiyanın nümunəsi olmaqla məhdudlaşmır, burada həm də ilkin təsəvvürün, mifoloji yaddaşın ritualları və ritual simvolikası baxımından spesifikləşən xüsusiyyətləri, inam və etiqadları da özünə yer alır. Bütün bunlar xalqın mədəniyyət fondunun zənginlik nişanəsi olaraq müxtəlif

formalarda özünü göstərməklə yaşarlıq qazanır və sistemli araşdırmaları elmi-nəzəri fikrin qarşısına qoymaqla diqqət önünə gəlir.

## Ədəbiyyat siyahısı

1. Aşıq dastanları. Üç cilddə, I c. Bakı: 2024, 400 s.
2. Aşıq dastanları. Üç cilddə, II c. Bakı: 2024, 416 s.
3. Aşıq dastanları. Üç cilddə, III c. Bakı: 2025, 400 s.
4. Azərbaycan folkloru antologiyası. Bakı: Çıraq, 2015, 614 s.
5. Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə, III c., Bakı: Elm, 1977, 328 s.
6. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992, 477 s.
7. Kitabi-Dədə Qorqud. Bakı: Gənclik, 1978, 182 s.
8. Manas. Bakı: Nurlan, 2009, s. 16 (290).
9. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. İki cilddə, II c. Bakı: Apostroff, 2014, 592 s.
10. Vəliyev V. Azərbaycan folkloru. Bakı: Maarif, 1985, 414 s.

**Zeynalova Leyla Mikayil**

## Household Rituals and Their Culturological System

### Summary

The entire spectrum of the material and spiritual matter of the peoples has become a problem of analysis in the context of what has been left behind from the archaic imagination at various levels. The general concept of myth and pre-mythic worldview turns the paradigmatic nature of ethnographic and mythological understanding into a necessity, and also the understanding of its spontaneous characteristics at the potential level into a basis on the supra-temporal level. The rich cultural texture of the Azerbaijani people comes to the fore with models established in primitive thought and a general system of presentation to society in terms of sacredness in the process of molding. Household rituals, as an example of this magnificence, have been analyzed in various aspects by folklorists, ethnographers, musicologists, etc., and have

shown sensitivity to the disclosure of their essence. Systematic analyses conducted from a culturological perspective form a more serious idea with the aim of showing sensitivity to the peripheral nature of the mechanisms of presentation of ethnoenergy and the peculiarity of the models.

Household rituals are the culture of self-expression and presentation of the ethnos at all levels. The clarification of what is conveyed in the essence of its genealogical system also served as the basis for determining its typology. The diversity contained in the ethnographic layer reveals the system of relations of the ethnos, its worldview, the symbolism of episodic facts that manifest themselves in various aspects, and at the same time creates conditions for determining the esoteric nature of culturological perfection.

**Key words:** household rituals, culturology, ethnography, customs, civilization, archaic memory, symbolism, etc.

**Лейла Микаил кызы Зейналова**

## Бытовые обряды и их культурная система

### Резюме

Весь спектр материальной и духовной материи народов стал проблемой анализа в контексте того, что осталось от архаического воображения на разных уровнях. Общая концепция мифа и домифического мировоззрения, превращая парадигматическую природу этнографического и мифологического понимания в необходимость, а также превращая понимание его спонтанных характеристик на потенциальном уровне в основу на сверхвременном уровне. Богатая культурная текстура азербайджанского народа выходит на первый план с моделями, установленными в первобытном мышлении, и общей системой представления обществу в терминах сакральности в процессе формирования. Бытовые церемонии, как пример этого великолепия, были проанализированы в различных аспектах фольклористами, этнографами, музыковедами и т. д. и показали чувствительность к раскрытию их сущности. Системный анализ, проведенный с культурологической точки

зрения, формирует более серьезную идею с целью показать чувствительность к периферийной природе механизмов представления этноэнергии и своеобразию моделей. Бытовые обряды являются культурой самовыражения и презентации этноса на всех уровнях. Выяснение того, что передается в сути его генеалогической системы, также послужило основой для определения его типологии. Разнообразие, содержащееся в этнографическом слое, раскрывает систему отношений этноса, его мировоззрение, символику эпизодических фактов, проявляющихся в различных аспектах, и в то же время создает условия для определения эзотерической природы культурологического совершенства.

**Ключевые слова.** бытовые обряды, культурология, этнография, обычаи, цивилизация, архаическая память, символика.

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 21.05.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 31.05.2025***
***Ekspert rəyi: Günel Seyidəhmədli***